UOT 7(091)

**Fatma Şahbazova**
**Rzayeva Rüqiyyə**
**AMEA Naxçıvan**
**AMEA Naxçıvan Bölməsi**
**AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76**
**E-mail:** fatma_sahbazova@hotmail.com

# BƏHRUZ KƏNGƏRLİ ƏNƏNƏLƏRİNİN DAVAMÇISI

**Xülasə**: Şamil Qazıyev vətəninə yurduna bağlı olan sənətkarlar sırasında öndə yer alır. O, həmçinin xalqını,gələcək nəsilləri düşünən bir insan olmuşdur. Bu onun ən ali keyfiyyətlərindən biri idi.Təhlil zamanı bir sıra əsərlərə toxunulur.Rəssam yaradıcılığında məişət janrına üstünlük verib. Onun əsərlərinə baxdıq da daim köhnə xatirələrə qayıdır insan.

**Açar sözlər:** qədim Naxçıvan, Şamil Qazıyev, rəssam, teatr, rəsm əsəri.

XX əsr Azərbaycan təsviri sənətinin birinci yarısının özünəməxsus bədii ənənələrlə inkişafı, yalnız taleyini bu sahə ilə bağlayan sənət fədailərinin səmərəli fəaliyyəti sayəsində baş tutmuşdur.Qərbi Azərbaycanın İrəvan şəhərində dünyaya göz açan rəssamın həyat və yaradıcılığının əsas hissəsi Naxçıvanla bağlı olmuşdur. Uşaq yaşlarında ailəsi ilə qədim Nuh yurduna pənah gətirən Şamil Qazıyevin üzərinə sonradan burada Azərbaycan rəssamlığının "Səməndər quşu" sayılan Bəhruz bəy Kəngərlidən başlayan ənənəni davam etdirmək məsuliyyəti düşmüşdü. Hər bir insanın həyat yolunun formalaşmasında onu əhatə edən insanların təsiri böyükdür. Belə demək mümkündürsə, insanın yaşadığı mühit onun gələcək həyat yolunun müəyyənləşməsində mühüm rol oynayır. Şamil Qazıyevin də ziyalı ailəsində böyüməsi, ziyalı mühiti ilə əhatə olunması onun həyatını istiqamətləndirmiş, ixtisas seçiminə təsir etmişdir. Qənaətimizcə, bu tədbirlər onun yaradıcılıq ənənələrinin yaşadılması, təbliği, gələcək nəsillərə çatdırılması yolunda yaddaqalan töhfələr olmuşdur.Azərbaycanın görkəmli rəssamı, Naxçıvan rəssamlıq məktəbinin yetirməsi Bu fikirlə Fizzə müəlliməmlə həmfikirəm Şamil Qazıyev böyük sənətkar Ə.Əzimzadənin Azərbaycanın xalq məişəti ənənələrini yaşatmaq

ideyalarına sadiq qalaraq öz yaradıcılığını da bu istiqamətlərdə formalaşdırmışdır desək, yanılmarıq(1, s.74,75).Şamil Həsən oğlu Qazıyev Bəhruz bəy Kəngərli irsinin davamçısıdır.Şamil Qazıyev həmçinin Əzim Əzimzadə irsinin də davamçısı idi. Rəssam yaradıcılığında Ə. Əzimzadənin Azərbaycan xalq məişətini tərənnüm edən ənənələrin izlərini görürük.O, Naxçıvan Dövlət Dram Teatrında çalışdığı 14 il ərzində "Şeyx Sənan", "Leyli və Məcnun", "Qaçaq Nəbi", "Həyat", "Otello", "Hamlet" və.s. onlarla tamaşanın rəssamı olur. (4, s.646).Şamil Qazıyevin müraciət etdiyi mövzular arasında özünün məşhur sələfinin bir vaxtlar çəkdiyi "Qaçqınlar", "Şəlalə", "Kəndə gedən yol", "İmamzadə", "Qızlar bulağı", "İlanlı dağ" və.s digər motivlərə müraciətlərə rast gəlirik. Onun "Köhnə İmamzadə", "Qaçqınlar", "Qızlar bulağı", "Şəlalə" və.s əsərləri bu qəbildəndir(2, s. 21,44,). Bəhruz bəy Kəngərlinin istər teatr, istərsə də rəngkarlıq sahəsində yolunu davam etdirən Şamil Qazıyev ustadın irsinə-bədii ənənələrinə sadiq şəkildə fəaliyyət göstərmişdir. Əsərlərini realist-gerçəkçi üslubda işləməsi də bunun göstəricisidir. Rəssamın ömür yolu üç şəhərlə bağlı olmuşdur. 1908-ci ildə tarixi dədə-baba torpağımız olan qədim İrəvan şəhərində dünyaya göz açan, qayğısız uşaqlıq illərini burada keçirən Şamil, on üç yaşında ikən ailəsi ilə Naxçıvana köçmüşdür. Naxçıvan Dövlət Dram Teatrında çalışdığı 14 il ərzində onlarla tamaşanın quruluşçu rəssamı olmuşdur. Həmin illərdə həm də bu gün muzeylərdə qorunan "Köhnə Naxçıvan silsiləsi"ni yaratmışdır. O, 1929-cu ildən fəaliyyətini Naxçıvan Pedaqoji Texnikumunda davam etdirmişdir. 1939-cu ildə isə Naxçıvanda şəxsi təşəbbüsü ilə rəssamlıq məktəbinin açılmasına nail olmuşdur. Lakin bu məktəb müharibənin səbəbindən cəmi iki illik fəaliyyətdən sonra bağlanır. Elə həmin illərdə, daha dəqiq desək, 1944-cü ildə Şamil Qazıyev hərtərəfli yaradıcılıq fəaliyyətinə görə muxtar respublikada ilk dəfə olaraq yenicə təsis olunmuş "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.Ömrünün coşqulu gənclik illərini sənətə həsr etmiş fədakar rəssam, yaradıcılığının zirvəsində olmasına baxmayaraq, 1948-ci ildə sənət mərkəzi sayılan Bakıya köçür. Ömrünün sonunadək "Azərbaycan gəncləri" qəzetində işləyir. Ömür yolunda dərin iz buraxmış Naxçıvan mühiti, doğma teatrla və digər sənət qayğıları ilə dolu gənclik illəri rəssamla yanaşı, onun yaradıcılıq səylərinə şahidlik edənlər üçün də çox yaddaqalan olmuşdur.1976 – cı il rəssam Bakıda yaşamasına baxmayaraq, Naxçıvan təbiəti onun qəlbində, ruhunda heyranlıq yaratdığı üçün növbəti tablolardan birini köhnə Naxçıvana, gəzdiyi dolandığı tarixi məkana həsr etmək qərarına gəlir.Yağlı boya ilə təsvir (3, s. 43).Məhz bu səbəbdən də Şamil Qazıyev Bakıda fəaliyyət göstərməsinə baxmayaraq, ömrünün sonuna iki il qalmış - 1978-ci ildə Naxçıvanda rəssamın fərdi sərgisi təşkil edilmişdir. Bu gün köhnə Naxçıvan foto-şəkillər, kino-kadrlar vasitəsilə göz önündə canlanırsa, Şamil Qazıyevin tablolarında onların cəlbedici və yaddaqalan bədii təcəssümünü seyr edirik. Bu cəhətdən onun əsrarəngizliyi danılmaz olan hər bir tablosu olduqca diqqətəlayiqdir. Rəssamın hər bir əsəri Naxçıvan tarixinin bir səhifəsidir desək, yanılmarıq. Tabloları seyr etdikcə XX əsr Naxçıvan şəhərinin, küçələrinin, evlərinin görünüşü, insanların geyimləri, məişəti, adət-ənənələri kino-kadr kimi gözümüzün önündə canlanır. Əsərlərindən birində Naxçıvan hamamlarının daxili quruluşunu, köhnə Naxçıvan sakinlərinin geyimini, hamam adət-ənənəsini təbiiliyi ilə canlandıran rəssam, uzaq-yaxın keçmişi bədii tutumda tarixə qovuşdurmuşdur. Bənzərsiz Naxçıvan təbiəti, doğma diyarın "tanınma nişanı"na çevrilən təbiət motivləri Şamil Qazıyev yaradıcılığının ana xəttini təşkil edir. Əcəmi yurdunun, onun ecazkar təbiətinin vurğunu olan rəssam, müşahidə etdiyi doğma təbiət motivlərini sonsuz məhəbbətlə sevmiş, onları əlvan

boyalarla vəsf etməkdən doymamışdır. Adət-ənənəyə bağlılıq, Vətəni sevmək, ailəsinə bağlılıq əslində ona atası Həsəndən qalmış bir miras idi. Ziyalı ailədə doğulan rəssamın dünyagörüşünün formalaşmasında atasının əvəzsiz rolu olub, desək, həqiqəti söyləmiş olarıq. Danılmaz həqiqətdir ki, əksər dünya rəssamları, o cümlədən də bir çox Azərbaycan rəssamları ən mühüm - şedevr əsərlərini ömürlərinin sonlarında yaratmışlar. Bunun da səbəbi yəqin ki, yetkin və püxtələşmiş yaş dövrünün özünəməxsus yaradıcı ab-havası ilə bağlıdır. Məhz bu incə məqam Şamil Qazıyev yaradıcılığında da duyulmaqdadır.Qeyd etdiyimiz kimi ömrünün 32 ilini (5 il tələbəlik dövrünü və iki il qəzetdə işlədiyi illəri də əlavə etsək 39 il olur) Bakıda yaşayan görkəmli sənətkarın duyulası kamillik çağlarında Naxçıvanı tərənnüm etmək istəyi də, heç şübhəsiz, dərin düşüncənin, rəssam ürəyinin səsi ola bilərdi. Sanki rəssam doyunca gəzsə də, doya bilmədiyi torpaqları, həmin o gənclik xatirələrini müdrik fırçasının köməyi ilə bir daha canlandırmaq istəmiş, hər tablosunda vəsf etmişdir. Bu hərarət, məhəbbət, gənclik eşqi, yaddaşın təravətli izləri tablolardakı rənglərdə də özünü büruzə vermişdir. Onun 1977-ci ildə - bu təmiz, ilahi hisslərin "simfoniya"sında növbəti tablolarından birini – "Köhnə qala" əsərini yaratması da bunun göstəricisidir.Tablonun mərkəz hissəsində boyaların solğun və isti çalarları ilə vəsf etdiyi Köhnə qalanın istinad divarları rəssamın tərənnüm etdiyi vaxtlardan sonra təbii aşınmaya məruz qalsa da, son illərdə dövlətin qayğısı ilə bərpa olunmuş və xalqın istifadəsinə verilmişdir. Əvvəllər yalnız Şamil Qazıyevin tablosunda gördüyümüz, tarixi mənbələrdə oxuduğumuz bu məkan bərpadan sonra bizə şərait yaratmışdır ki, tarixin bir parçası ilə qovuşa və qürur hissi keçirə bilək. Tarixi abidələrimizin bərpasında, onların əvvəlki görkəminin qaytarılmasında vasitəçi olan rəssamlarımızdan biri də məhz Şamil Qazıyev olmuşdur.

**Ədəbiyyat:**


1.Fizzə Quliyeva.Şamil Qazıyevin Həyatı və Yaradıcılığı.Naxçıvan-2018.
2.Şamil Qazıyev "Albom Katoloq",N axçıvan,2010
3.Naxçıvan.Naxçıvan: Əcəmi, 2010,63 s.
4.Naxçıvan Teatrının Səlnaməsi (1883-2008).Naxçıvan, Əcəmi,2010,734s.



**Фатма Шахбазова, Рзаева Ругия**


**Бахруз Кенгерли-Преемник Традиций**

**Резюме**


Шамиль Газиев занимает почетное место среди ремесленников, которые привязаны к Родине. Он также был человеком, который думал о своем народе, будущих поколениях. Это являлось одним из его самых высоких качеств. При анализе затрагиваются ряд его работ. В творчестве художника преобладает бытовой жанр. Глядя на его произведения, человек всегда возвращается к старым воспоминаниям.



**Ключевые слова:** древний Нахчыван, Шамиль Газиев, художник, театр, произведение живописи.



**Fatma Shahbazova. Rukiya Rzayeva**

**Bahruz Kengerli - Successor of Traditions**

**Summary**

Shamil Gaziev occupies an honorable place among artisans who are attached to their homeland. He was also a man who thought about his people, future generations.This was one of his highest qualities. The analysis touches on a number of his works. In the artist's work, the household genre prevails. Looking at his works, a person always returns to old memories.

**Keywords**: Ancient Nakhchivan, Shamil Gaziyev, artist, theater, painting.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.03.2019 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.03.2019Məqalənin çapa qəbul olunma tarixi: 10.04.2019**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru,dosent Sevil Kərimova**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**